Ən çox oxunan qəzet

№ 105 (4800), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

12 iyun
(çərşənbə axşamı)

## Finalçılar bəlli oldu

"Maşın"da iki iştirakçı birdən getdi



**Gözlənilməz hadisələri ilə yadda qalan "Maşın"ın bu gün yeni bölümü nümayiş olunub.**

5 iştirakçı ilə davam edən oyunda bu gün Uran səsverməyə çıxıb. Finala iki addım qalmış səsverməyə çıxan Uran səs topladığı təqdirdə Pərvin Abıyevanı oyundan çıxaracağını söyləyib.

(Səh.13)

## Azərbaycanda bayram namazının vaxtı açıqlanıb

**Azərbaycanda Ramazan ayı münasibəti ilə qılınacaq bayram namazının vaxtı açıqlanıb.** Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, bayram namazı iyunun 15-də səhər saat 08:00-da Əjdərbəy məscidində, 09:00-da isə Təzə Pir məscidində qılınacaq.

(Səh.9)





## Prezident İlham Əliyev Putini təbrik edib

**Prezident İlham Əliyev rusiyalı həmkarı Vladimir Putini Rusiya günü münasibəti ilə təbrik edib.**

Təbrik məktubunda deyilir:

"Hörmətli Vladimir Vladimiroviç,

Dövlət bayramınız - Rusiya Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Dost Rusiya bu gün dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iqtisadiyyatın davamlı inkişafı və modernləşdirilməsi, xalqın rifahının yüksəldilməsi məsələlərini uğurla həll edir. Rusiya beynəlxalq arenada fəal rol oynayır.

(Səh.2)

## Poroşenko TANAP-ın açılışında iştirak edəcək



**Ukrayna prezidenti Petro Poroşenko bu gün Türkiyəyə səfər edəcək.** Səfər çərçivəsində Poroşenko Transanadolu qaz kəmərinin (TANAP) açılışında iştirak edəcək.

(Səh.3)

# Düşmən özünü ifşa edir



## Hikmət Hacıyev: "Ermənistan XİN bu açıqlamalarla münaqişə tərəfi olduğunu bir daha təsdiq edir"

Ermənistan xarici işlər naziri Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatının iclasındakı çıxışı və Ermənistan XİN-nin cəbhədəki vəziyyət ilə əlaqədar açıqlaması ziddiyyətli xarakter daşıyır və özü-özünü ifşa edir.

(Səh.4)



## "Paşinyan hökuməti ilə masaya əyləşməyin yeri yoxdur"

Eldar Namazov: "İndi vəziyyət dəyişib və bizə atılan bumeranq ermənilərə tərəf istiqamət alıb"

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar yenidən dalana dirənib.

(Səh.4)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən

## Səbəblər və xilas yolları göstərildi



# Çimərliklərdə boğulma halları niyə artır?

Səh.9)